www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-04 (1830) 27 fevral 2026-cı il



# Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilib

Rektor, professor Gəray Gəraybəyli: Şəhidlərimizin xatirəsinə ucaldılmış ən böyük abidə bu gün Qarabağda aparılan bərpa və quruculuq işləridir

səh. 2

## Universitetimizdə yeni Qonaq evi istifadəyə verilib

səh. 2

## Hazırlıq kursunda 16 ölkədən 105 tələbə təhsil alır

səh. 4

## Hərbi tibb fakültəsində rezidentlərin məzun mərasimi keçirilib

səh. 5




## "Gələcək üçün bacarıqlar" layihəsi çərçivəsində memorandum imzalanıb

Tələbələrin ixtiraçılıq, startap ideyalarının inkişafı əsas prioritetlərdir

səh. 2

## Rektor Gəray Gəraybəyli İran səfirini qəbul edib

*Səfir iranlı tələbələrin məmnunluğunu və təşəkkürlərini çatdırıb*

səh. 2

## Ensefalit - mərkəzi sinir sistemini zədələyən ağır xəstəlikdir

*Aygün Musayeva: Postensefalitik sindrom aylarla, hətta illərlə davam edə bilər*

səh. 6




## Universitetin inkişaf səviyyəsi yalnız statistik göstəricilərlə ölçülmür

Elmi Şurada payız semestrinin imtahan sessiyasının nəticələri müzakirə olunub

səh. 3

# Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilib

## Rektor, professor Gəray Gəraybəyli: Şəhidlərimizin xatirəsinə ucaldılmış ən böyük abidə bu gün Qarabağda aparılan bərpa və quruculuq işləridir

**Azərbaycan Tibb Universitetinin (ATU) rəhbərliyi Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək məqsədilə "Ana harayı" abidəsini ziyarət edib. Universitet kollektivi abidə önünə gül dəstələri düzərək şəhidlərin əziz xatirəsinə dərin hörmət və ehtiramlarını bildirib.**

Ziyarətdən sonra universitetdə Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirin əvvəlində faciə qurbanlarının və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Tədbiri giriş sözü ilə açan universitetin rektoru, professor Gəray Gəraybəyli bildirib ki, Azərbaycan xalqı artıq 34 ildir Xocalı faciəsini böyük ağrı və ehtiramla anır. Rektor qeyd edib ki, Xocalı faciəsi Azərbaycanın müasir tarixində xüsusi yer tutur. Dinc əhaliyə - qadınlara, uşaqlara və qocalara qarşı törədilmiş vəhşiliklər heç bir hərbi məqsədlə izah oluna bilməz. Silahsız mülki insanlara qarşı həyata keçirilmiş bu qətliam insanlığa qarşı törədilmiş ağır cinayət idi.

G.Gəraybəyli vurğulayıb ki, uzun illər bu hadisəyə yalnız böyük faciə kimi baxılsa da, son illər tarixə yanaşma köklü şəkildə dəyişib: "Tarix göstərir ki, xalqlar məhz ağır sınaqlardan keçərək daha da möhkəmlənir. Azərbaycan xalqı da bu yolu keçdi. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsindən sonra biz artıq hadisələrə fərqli prizmadan baxırıq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti təmin etdi və dünyaya öz sözünü dedi".



Rektor deyib ki, faciənin əsas məqsədi xalqın ruhunu sındırmaq, cəmiyyətdə qorxu və ümidsizlik yaratmaq olsa da, bu mənfur plan baş tutmadı. Azərbaycan xalqı öz birliyini qorudu və nəticədə qalib dövlət kimi öz tarixini yazdı. Çıxışda müasir dövrdə informasiya müharibəsinin böyük aktuallıq daşıdığı diqqətə çatdırılaraq, gənclərin milli maraqları qorumaq və tarixi həqiqətləri düzgün təbliğ etmək baxımından məsuliyyətli olmalarının vacibliyi vurğulanıb. "Qələbə qazanmaq nə qədər çətindirsə, onu qorumaq daha da çətindir. Xalqın birliyi daim möhkəm saxlanılmalıdır", – deyə rektor əlavə edib.

Daha sonra Xocalı faciəsinə həsr olunmuş videoçarx izlənilib. Burada beynəlxalq müharibə qanunlarının kobud şəkildə pozulduğu, atıcı silahların və ağır artilleriyanın birbaşa silahsız mülki əhaliyə qarşı yönəldildiyi faktlarla bir daha diqqətə çatdırılıb. Kadrlarda şəhərdə heç bir hərbi hədəfin olmadığı, yalnız dinc və əliyalın sakinlərin qəddarlıqla hədəfə alındığı xüsusi vurğulanıb.

İnsan anatomiyası kafedrasının professoru, tibb elmləri doktoru, əslən Xocalıdan olan Mübariz Allahverdiyev çıxışında faciənin həm soyqırımından əvvəlki, həm də sonrakı mərhələlərinə toxunaraq, xatirələrini bölüşüb. O bildirib ki, universitet ölkədə baş verən ictimai-siyasi proseslərə heç vaxt biganə qalmayıb və hər zaman xalqın yanında olub.

Professor qeyd edib ki, 1991-ci ildə Qarabağdan olan bir qrup tələbə imtahanları vaxtından əvvəl verərək ailələrinin yanına qayıtmaq istədiklərini bildirib. Təxminən 60-a yaxın tələbənin müraciəti əsasında müəllimlərin müşayiəti ilə onların bölgəyə yollanması qərara alınıb.

M.Allahverdiyev həmin səfər zamanı Xocalı, Malıbəyli və Şuşa istiqamətlərində olduqlarını, çətin və təhlükəli şəraitdə tibbi və mənəvi yardım göstərdiklərini diqqətə çatdırıb. O, Xocalının blokada vəziyyətində olduğunu, qaz və elektrik enerjisinin kəsildiyini, kəskin ərzaq qıtlığı yaşandığını xatırladıb. Professor atasının da həmin dövrdə Xocalıda olduğunu vurğulayaraq acı bir xatirəsini bölüşüb: "Günlərin birində, gündüz saatlarında evdə tək olarkən mərmi atəşi nəticəsində yaşadığımız evə zərər dəydi. Partlayışın yaratdığı güclü sarsıntı və qorxu atamın səhhətinə ağır təsir göstərdi. Keçirdiyi kəskin stress nəticəsində beyninə qan sızdı və o, həyatını itirdi".

M.Allahverdiyev bildirib ki, 1992-ci ilin fevralında şəhərə hücum nəticəsində dinc sakinlər amansızcasına qətlə yetirilib və Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin çəkdiyi kadrlar bu faciənin dünya ictimaiyyətinə çatdırılmasında əvəzsiz rol oynayıb. Çıxışda Xocalı soyqırımının bütövlükdə Azərbaycan xalqına qarşı törədilmiş ağır cinayət olduğu və bu faciənin heç vaxt unudulmayacağı vurğulanıb.

II Müalicə-profilaktika fakültəsinin tələbəsi Nigar Babayeva bədii-publisistik çıxışında Xocalı soyqırımının insanlıq tarixində misli görünməmiş vəhşilik nümunəsi olduğunu qeyd edib.

O bildirib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə şəhər yerlə-yeksan edilib, dinc sakinlər xüsusi amansızlıqla qətlə yetirilib.

Tələbə çıxışında İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində 2008-ci ildə başlanan və 2009-cu ildən fəaliyyət göstərən "Xocalıya ədalət" beynəlxalq kampaniyası haqqında da məlumat verib, təşəbbüsün məqsədinin faciəyə beynəlxalq hüquqi-siyasi qiymət verilməsinə nail olmaq olduğunu vurğulayıb.

Tədbiri yekunlaşdıran rektor bildirib ki, bu gün ölkəmizin hər yerində Xocalı qurbanlarının xatirəsi ehtiramla yad edilir. Şəhidlərimizin xatirəsinə ucaldılmış ən böyük abidə isə bu gün Qarabağda aparılan genişmiqyaslı bərpa və quruculuq işləridir.

**Aytac ƏSƏDOVA**

# "Gələcək üçün bacarıqlar" layihəsi çərçivəsində memorandum imzalanıb

## Tələbələrin ixtiraçılıq, startap ideyalarının inkişafı əsas prioritetlərdir

**Fevralın 19-da Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi" tərəfindən icra olunan "Gələcək üçün bacarıqlar" layihəsinin IV "TUSİ" inkubasiya proqramının "Demo Day" tədbiri təşkil edilib.**



Məqsəd innovasiya sahəsində kadr potensialının gücləndirilməsi, təhsildə innovativ fəaliyyətin təşviqidir. Eyni zamanda, tələbələrin innovativ ideyalarının inkişafına şərait yaradılması və onların ixtiraçılıq, startap fəaliyyətinə istiqamətləndirilməsi əsas prioritetlərdəndir.

Tədbirdə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, bp-nin Xəzər regionu üzrə kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, ölkəmizdəki ali təhsil müəssisələrinin rektorları iştirak ediblər.

Tədbir çərçivəsində Dövlət Agentliyi ilə layihəyə yeni qoşulan Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Dövlət Gömrük Komitəsinin Akademiyası arasında "Universitetlərdə innovasiya mühitinin formalaşdırılması və inkişaf etdirilməsi sahəsində əməkdaşlığa dair" Anlaşma Memorandumu imzalanıb. Azərbaycan Tibb Universiteti adından memorandumu rektor, professor Gəray Gəraybəyli imzalayıb.

Sonra qonaqlar startap komandalarının layihələri ilə tanış olublar.

Tədbirdə rəsmilərin çıxışları dinlənilib, layihə çərçivəsində görülmüş işləri əks etdirən videoçarx nümayiş etdirilib.

IV "TUSİ" inkubasiya proqramını uğurla başa vuran 16 startap komandası layihələrini təqdim edib. Münsiflər heyətinin qiymətləndirməsinə əsasən ən yaxşı 3 layihəyə "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin rezidenti olmaq imkanı yaradılıb. I yerin qalibi isə "Take Off İstanbul" startap sammitində iştirak hüququ qazanıb.

Tədbir zamanı növbəti - V "TUSİ" inkubasiya proqramı barədə ətraflı məlumat verilib. Proqram 10 əsas mövzu və 34 alt modulu əhatə edən intensiv təlimlər vasitəsilə iştirakçılara startapın qurulması, ideyaların sistemli şəkildə inkişafı və innovasiya ekosisteminə inteqrasiyası istiqamətində geniş imkanlar yaradır.

2021-ci ildən bu günədək layihə çərçivəsində 15 ali təhsil müəssisəsi ilə əməkdaşlıq qurulub, 3 mindən çox tələbə tərəfindən 300-dən artıq startap ideyası təqdim olunub. Universitetlərdə hazırlanmış 130-dan çox mentorun dəstəyi ilə 29 startap komandası formalaşdırılıb və "Demo Day" tədbirlərində layihələrini təqdim edib.

"Gələcək üçün bacarıqlar" layihəsi çərçivəsində indiyədək formalaşmış 4 startap tərəfindən ümumilikdə 310 min manat həcmində investisiya cəlb olunub.

# Rektor Gəray Gəraybəyli İran səfirini qəbul edib

## Səfir iranlı tələbələrin məmnunluğunu və təşəkkürlərini çatdırıb

**İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Müctəba Dəmirçilu və səfirliyin nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin qonağı olub.**



Rektor, professor Gəray Gəraybəyli qonaqlara universitetimizdə son illərdə həyata keçirilən yeniliklər, tədris prosesinin təkmilləşdirilməsi, elmi-tədqiqat istiqamətində görülən işlər və beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi barədə ətraflı məlumat verib.

Səfir M.Dəmirçilu ATU-da təhsil alan iranlı tələbələrin məmnunluğunu və təşəkkürlərini ifadə edib, onların təhsil və sosial məsələlərlə bağlı bəzi arzu və təkliflərini diqqətə çatdırıb. O, iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın inkişafının əhəmiyyətini vurğulayıb.

Görüşdə İranın Azərbaycandakı konsulu Yusefəli Veysi, səfirliyin birinci katibi Elham Xəlili, ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Ümumi işlər üzrə prorektor Nizami Adilov və Əcnəbi təhsilalanlarla iş üzrə dekan, dosent Natiq Bayramov iştirak ediblər.

Sonda tərəflər qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsi və tələbə mübadiləsi istiqamətində əlaqələrin inkişafı barədə fikir mübadiləsi aparıblar.

# Universitetimizdə yeni Qonaq evi istifadəyə verilib



Xarici ölkələrdən müxtəlif proqramlar çərçivəsində universitetimizə gələn professor-müəllim heyəti üçün ATU-nun tələbə şəhərciyində yeni qonaq evi istifadəyə verilib. Açılış mərasimində universitetin rəsmi şəxsləri iştirak ediblər.

Rektor, professor Gəray Gəraybəyli bildirib ki, qonaq evində universitetimizə gələn qonaqlara həm rahat, həm də müasir şərait təqdim olunur. Burada onların həm işgüzar fəaliyyəti, həm də istirahəti nəzərə alınıb.

Qonaq evi müxtəlif ölçülü otaqlar, tam təchiz olunmuş mətbəx, sürətli Wi-Fi ilə təmin olunub və hər otaqda ayrıca sanuzel quraşdırılıb. Qonaqlarımızın universitetimizə səfərdən hərtərəfli razı qalması əsas məqsədimizdir.



# Universitetin inkişaf səviyyəsi yalnız statistik göstəricilərlə ölçülmür

## Elmi Şurada payız semestrinin imtahan sessiyasının nəticələri müzakirə olunub

**Fevralın 24-də Böyük Elmi Şuranın geniş tərkibdə növbəti iclası keçirilib. İclası rektor, professor Gəray Gəraybəyli açaraq gündəlikdə duran məsələləri diqqətə çatdırıb.**

Əvvəlcə "Azərbaycan Tibb Universitetində 2025-2026-cı tədris ilinin payız semestrinin imtahan sessiyasının nəticələri və yaz semestrində tədrisin keyfiyyətinin artırılması istiqamətində universitet kollektivinin qarşısında duran vəzifələr" barədə Tədris işləri üzrə prorektor, professor Anar Ağayevin hesabat məruzəsi dinlənilib.

Payız semestrinin imtahan sessiyasının nəticələrinə dair əsas göstəriciləri, müşahidə olunan tendensiyaları və ortaya çıxan strateji nəticələri diqqətə çatdıran məruzəçi universitetin inkişafının yalnız statistik göstəricilərlə ölçülmədiyini deyib: "Əsas göstərici auditoriyada baş verən real dəyişiklikdir: tələbənin necə düşündüyü, hansı peşə bacarığını qazandığı, biliklərin praktikaya necə çevrildiyi və nəticədə cəmiyyətə hansı keyfiyyətdə həkim təqdim etməyimizdir. Bu baxımdan 2025-2026-cı tədris ilinin payız semestrinin imtahan sessiyası təkcə qiymətləndirmə mərhələsi deyil, həm də tədris prosesinin güclü və zəif tərəflərini açıq şəkildə göstərən analitik göstəricilər sistemidir. Bu gün biz həmin nəticələrə yekun kimi deyil, növbəti mərhələdə daha idarəolunan, daha səmərəli və daha keyfiyyətyönümlü tədris mühiti qurmaq üçün əsas kimi baxırıq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsil və səhiyyəni dövlət siyasətinin prioritet istiqamətləri kimi müəyyən etməsi ali tibbi təhsilin keyfiyyətinə yanaşmamızı daha strateji və daha məsuliyyətli edir. Bu yanaşma dövlət səviyyəsində təhsilin davamlı inkişafının zəruriliyini də aydın şəkildə ifadə edir".

A.Ağayev bildirib ki, aparılan müqayisəli təhlil ümumi akademik göstəricilər üzrə müsbət dinamikanın formalaşdığını göstərir. Xüsusilə diqqətçəkən məqam ondan ibarətdir ki, cari tədris ilində tələbə kontingentinin artmasına baxmayaraq, nəticələr geriləmə deyil, əksinə, yüksəliş istiqamətində dəyişib. Belə ki, universitet üzrə həm mütləq mənimsəmə göstəricisi, həm də keyfiyyət göstəricisi əvvəlki tədris ili ilə müqayisədə artıb: "Bu müsbət dinamika təsadüfi deyil və üç əsas amillə izah olunur: tədris prosesində təşkilati intizamın güclənməsi, qiymətləndirmə mexanizmlərinin daha sistemli qurulması və akademik nəzarət alətlərinin daha effektiv tətbiqi. Məhz bu yanaşma nəticələrin sabitliyini artırıb və ümumi göstəriciləri daha proqnozlaşdırıla bilən formaya gətirib.

Universitetimizin akademik mövqeyi yalnız daxili göstəricilərlə deyil, seçim davranışı ilə də təsdiqlənir. Ən yüksək bal toplayan abituriyentlərin, o cümlədən Prezident təqaüdçülərinin ATU-nu seçməsi akademik reputasiyamızın real göstəricisidir. Lakin bu tələbələrin müəyyən hissəsinin sonradan bu statusu itirməsi mühüm akademik siqnaldır. Bu fakt göstərir ki, yüksək qəbul balı davamlı akademik üstünlüyə avtomatik zəmanət vermir".

Son illərdə qəbul olmuş 147 Prezident təqaüdçüsündən 57 nəfərin (38,8%) bu statusu itirməsini ciddi indikator kimi qiymətləndirən prorektorun sözlərinə görə, adaptasiya mexanizmlərinin sistemli olmaması və fərdi akademik müşayiətin kifayət qədər institusional xarakter daşımaması bu prosesə təsir edən mühüm amillər sırasındadır.

Hesabatda fakültə və ixtisaslar üzrə ilkin mənimsəmə və keyfiyyət göstəriciləri də öz əksini tapıb. Qeyd olunub ki, ümumi universitet səviyyəsində müsbət dinamika qorunmaqla yanaşı, fakültələr üzrə nəticələrin paylanması bərabər deyil. Lakin bu fərqlər tələbələrin zəifliyi ilə deyil, tədris modelinin xüsusiyyətləri və qiymətləndirmə yanaşmaları ilə bağlıdır və fakültələr üzrə diferensial yanaşmanın tətbiqini zəruri edir.

Məruzəsində fakültələr üzrə apellyasiya araşdırmalarının illər üzrə nəticələrinə toxunan prorektor qeyd edib ki, 2025-2026-cı tədris ili üzrə təqdim olunan məlumatlara əsasən, ümumilikdə 1305 apellyasiya müraciətinin 29,73%-i əsaslı hesab olunub. Bu rəqəm onu göstərir ki, qiymətləndirmə mexanizmlərində müəyyən boşluqlar mövcuddur və sistemin daha dəqiq tənzimlənməsinə ehtiyac var.



A.Ağayev xarici tələbə kontingenti üzrə göstəricilərə də diqqət çəkərək, 2025-2026-cı tədris ilində 2124 nəfər xarici vətəndaşın təhsil aldığını və bu rəqəmin universitetin xarici tələbələr üçün cəlbedici təhsil məkanı olduğunu təsdiqlədiyini vurğulayıb.

Yaz semestri üçün prioritetlərin həm akademik əsaslandırmaya, həm də sistemli nəticəyə yönəldiyini söyləyən prorektor bildirib ki, birinci istiqamət test bazalarının real və ölçülə bilən şəkildə yenilənməsidir: "Etibarlı qiymətləndirmə yalnız nəzarət vasitəsi deyil, eyni zamanda tədrisin keyfiyyətini idarə edən elmi alətdir. Digər istiqamətlər klinik və peşəyönümlü fənlər üzrə tədris metodikasının sistemli şəkildə yenilənməsi, qiymətləndirmə meyarlarının tam standartlaşdırılması, Prezident təqaüdçüləri üçün akademik mentorluq və I kurs adaptasiya proqramının sistemli və davamlı mexanizm kimi qurulmasıdır. Çünki ilk semestrdə formalaşan akademik vərdişlər tələbənin sonrakı təhsil trayektoriyasını müəyyən edir və risklərin erkən mərhələdə vaxtında idarə olunmasına şərait yaradır".

Bundan sonra çıxış edənlər məruzədə toxunulan məsələlərlə bağlı fikirlərini bölüşüb, lakonik və əsas problemləri özündə əks etdirən hesabatı yüksək qiymətləndiriblər.

Apellyasiya Komissiyasının sədri, professor Gülnarə Əzizova payız semestrinin qış sessiyası zamanı apellyasiya komissiyasının işi haqqında məlumat verib. 268 ekspertlə işlədiklərini deyən komissiya sədri 2025-2026-cı tədris ilində müraciətlərin sayının müəyyən qədər azalmasını VI kursda imtahanın şifahi aparılması ilə əlaqələndirib. O, bütün fakültələr və kurslar üzrə ümumi şikayətlərin statistikasını da diqqətə çatdıraraq qeyd edib ki, texniki qüsurlar çox cüzi olub.

Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov əsas diqqəti keçən dərs ilində kəsirlərin sayının artmasına yönəldib. Bu kəsirlərin indi də davam etdiyini, amma bir qədər uyğunlaşma olduğunu deyib. Qeyd edib ki, yeni dərs ilində qeyri-kafi qiymət alanların 2 dəfədən çox azalması yaxşı göstəricidir. Kafedra müdirinin fikrincə, ən çox narahatedici məsələ keçən dərs ilində Stomatologiya fakültəsində təhsil alan xarici tələbələrin əksəriyyətinin qeyri-kafi qiymət almasıdır ki, bu da ilk növbədə dil probleminin aktuallığını göstərir.

Uşaq cərrahiyyəsi kafedrasının müdiri, professor Ramiz Poluxov bildirib ki, cərrahi fənlər içərisində ən çox material olan sahə uşaq cərrahiyyəsidir. Çünki praktik fəaliyyətimizdə 150-dən çox inkişaf qüsuruna rast gəlirik və bunları tədris etməliyik. Bu baxımdan dərs saatının 35-dən 60-a qaldırılmasının kadr potensialına da təsir göstərdiyini deyən kafedra müdiri, bir təklifini də diqqətə çatdırıb. Qeyd edib ki, Tədris Cərrahiyyə Klinikasının bütün əməliyyatxanalarında kameralar quraşdırılıb. Həftənin müəyyən günlərində burada icra olunan maraqlı əməliyyatların mühazirə zallarına translyasiya edilməsi xüsusilə rezidentlər üçün çox vacibdir.

Məruzə və çıxışlarda səslənən fikirləri yekunlaşdıran rektor, professor Gəray Gəraybəyli imtahan sessiyasının tədris prosesinin bitməyən problemlərini üzə çıxaran bir mərhələ olduğunu, bu problemlərlə bağlı müzakirələrin vacibliyini vurğulayıb: "Məruzədə də bir neçə dəfə səsləndi ki, yuxarı kurslarda kəmiyyət göstəricisi aşağı kurslara nisbətdə xeyli yüksəkdir. Bu nəticə bizi qane etməsə də, düşünürəm ki, burada müsbət bir tendensiya var. Çünki bunun səbəbi kifayət qədər ciddi müqavimətə baxmayaraq, keçən ildən I kurs, bu ildən isə həm də II kurs tələbələrinə heç bir test sualının və PDF-lərin verilməməsidir. Beləliklə, çətin bir təcrübənin tətbiqinə nail olduq. Eyni zamanda bu il imtahanların VI kursda fərqli formatda aparılması da bizim üçün yeni təcrübə idi. İlk dəfə olaraq VI kurs tələbələrinin imtahanı testlə deyil, şifahi şəkildə təşkil olunmuşdu. Hələlik istədiyimiz nəticəni ala bilməsək də, əsas məqsədimiz VI kursu praktik həyata, praktik təbabətə yaxınlaşdırmaqdır. Təhlillər göstərir ki, tələbələr də bu təcrübəni müsbət qarşılayırlar".




Testlə bağlı problemlər üzərində xüsusi dayanan rektor, keyfiyyətli test bazası hazırlamaq üçün "ekspert bunkeri" yaratmağın vacibliyinə toxunub və tövsiyələrini verib.

İmtahan mərkəzində aparılan struktur dəyişiklikləri, daha çox kliniki kafedralarda mövcud olan problemlər haqqında şura üzvlərini məlumatlandıran universitetin rəhbəri yekun nitqində ikinci ali təhsil, saathesabı dərslərin aparılması, proqramların beynəlxalq tələblərə uyğun hazırlanması, tibb təhsilində rəqabət mühitinin yaranması və xarici tələbələrin sayının azalması məsələlərinə də aydınlıq gətirib.

Hesabat məruzəsinə dair müzakirələr bitdikdən sonra Elmi Şura ATU-nun yeni elmi istiqamətlərinin təsdiq olunması, həm Etik Komitənin təsdiq edilmiş yeni strukturuna uyğun hazırlanmış, həm də ATU-da fəaliyyət göstərən Problem Elmi Komissiyalarının Əsasnamə layihəsi, həmçinin İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin Əsasnaməsinin ikinci redaksiyası barədə qərarlar qəbul edib. Eyni zamanda mübadilə proqramında iştirak edən tələbələr üçün rekvizit və prerekvizit fənlərin istisna hal kimi aradan qaldırılması, "Biyan, seolit, dəniz yosunları əsasında yeni kombinə olmuş dərman vasitəsinin yaradılması və farmako-bioəczaçılıq tədqiqatlarının aparılması" adlı layihə barədə təkliflərə də baxan Elmi Şura Səhiyyə Nazirliyi tərəfindən göndərilən, İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış klinik protokolu təsdiq etməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

## Kamandan Oxatma Federasiyası ilə birgə layihələr icra olunacaq



**Azərbaycan Tibb Universiteti ilə Azərbaycan Kamandan Oxatma Federasiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənəd tərəflər arasında idman və sağlamlıq sahəsində birgə fəaliyyətin genişləndirilməsini, eləcə də perspektiv layihələrin həyata keçirilməsini nəzərdə tutur.**

Təsərrüfat işləri üzrə prorektor İlqar Mehrabov qonaqları salamlayaraq universitetdə idmanın inkişafına göstərilən diqqətdən bəhs edib. O, ATU-nun struktur bölməsi olan "Təbib" Tədris İdman Mərkəzinin tələbələrin fiziki sağlamlığının möhkəmləndirilməsində, sağlam həyat tərzinin təbliğində və idman ənənələrinin formalaşmasında mühüm rol oynadığını vurğulayıb. Prorektor qeyd edib ki, tiblə idmanın vəhdəti həm nəzəri, həm də praktik baxımdan cəmiyyət üçün böyük əhəmiyyət daşıyır: "Gənclərin sağlam ruhda və sağlam bədəndə formalaşması bizim əsas prioritetlərimizdəndir".

Federasiyanın baş katibi Fərid Xəlilov isə rəhbərlik etdiyi qurumun son illərdə qazandığı nailiyyətlərdən danışıb, ölkə və beynəlxalq səviyyədə uğur qazanmış idmançılar barədə məlumat verib: "Kamandan oxatma idman növünə marağın artırılması, xüsusilə gənclər arasında bu sahənin təşviqi əsas məqsədlərimizdəndir. ATU ilə əməkdaşlıq bizə sağlam həyat tərzinin təbliği və idmanın elmi əsaslarla inkişafı istiqamətində yeni imkanlar yaradacaq".

Memorandum çərçivəsində birgə tədbirlərin, seminar və təlimlərin təşkili, tələbələrin kamandan oxatma idman növünə cəlb olunması, eləcə də sağlamlıq və idman sahəsində maarifləndirici layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Tərəflər əməkdaşlığın uzunmüddətli və qarşılıqlı faydalı olacağına əminliklərini ifadə ediblər.

Görüşdə "Təbib" Tədris İdman Mərkəzinin rəhbəri Qələndər Aslanov, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova, həmçinin Azərbaycan Kamandan Oxatma Federasiyasının İdman şöbəsinin müdiri Kamran Həsənzadə, yarışlar üzrə menecer Ləman Sultanlı, mətbuat katibi Aynur Hüseynova iştirak ediblər.

"2025-26-cı tədris ili üçün universitetin hazırlıq kursuna qəbul prosesi dekabr ayının sonunda tamamlanıb. Yanvarın 12-dən etibarən dinləyicilər dərslərə başlayıblar". Bu barədə məlumatı Azərbaycan Tibb Universitetinin Əcnəbi təhsilalanlarla iş üzrə dekanı Natiq Bayramov verib.

## Hazırlıq kursunda 16 ölkədən 105 tələbə təhsil alır



Dekan bildirib ki, ilkin mərhələdə bölmələr üzrə dil fənləri təşkil olunub. Azərbaycan, ingilis və rus bölmələri üçün müvafiq olaraq Azərbaycan, ingilis və rus dilləri tədris olunur. Hazırda dərslər davam edir. İngilis dili qrupunda beynəlxalq dil sertifikatı olan tələbələr müvafiq fənlərdən azaddır və onlar mart ayında digər fənlərin tədrisinə qoşulacaqlar.

N.Bayramov qeyd edib ki, bu il hazırlıq kursuna 16 ölkədən ümumilikdə 105 tələbə qəbul olunub. Onlardan 69 nəfər Azərbaycan bölməsində, 32 nəfər ingilis bölməsində, 4 nəfər isə rus bölməsində təhsil alır. "Tələbələr arasında qrantla təhsil alanlar da var. Onlardan biri ölkələrarası saziş çərçivəsində ayrılmış qrant, digəri isə "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" əsasında hazırlıq kursuna qəbul olunub", - deyə dekan vurğulayıb.

Hazırlıq kursunun müddətinin 6 ay olduğunu bildirən N.Bayramov əlavə edib ki, tədrisin ilk mərhələsi əsasən dil hazırlığını əhatə edir: "Kimya, fizika və biologiya fənlərinin tədrisinə martın 15-dən sonra başlanılacaq. Gələn il yanvarın 3-10-u aralığında Virtual Mərkəzdə test imtahanları keçiriləcək və nəticələrə əsasən dinləyicilər müvafiq ixtisaslar üzrə 1-ci kursa qəbul olunacaqlar".

Dekan onu da nəzərə çatdırıb ki, bəzi tələbələr üçün viza prosedurları tətbiq olunub və hazırda üç nəfərin yaxın günlərdə Azərbaycana gəlməsi gözlənilir. Onlardan ikisi İraq, biri isə Sudan vətəndaşıdır.

Qeyd olunub ki, hazırlıq kursuna qəbul edilən hər bir tələbə tibbi sığorta ilə təmin edilib. Bu isə tədris müddətində yarana biləcək sağlamlıq problemlərinin operativ və səmərəli həllinə şərait yaradacaq.

## Kursantlarımız Xocalı şəhidlərini ehtiramla yad edib




Hərbi tibb fakültəsinin kursantları Xocalı soyqırımının 34-cü ildönümü münasibətilə təşkil olunan anım tədbiri çərçivəsində Ana Harayı abidəsini ziyarət ediblər.

Ziyarət zamanı kursantlar abidənin önünə gül dəstələri qoyaraq faciə qurbanlarının əziz xatirəsini dərin hörmət və ehtiramla yad ediblər. Anım mərasimi keçirilib, şəhidlərin ruhuna dualar oxunub.

Qeyd edək ki, 1992-ci ilin fevralında baş vermiş Xocalı soyqırımı Azərbaycan tarixinin ən faciəli və qanlı səhifələrindən biridir. Hər il olduğu kimi, bu il də ölkəmizin müxtəlif qurum və təşkilatları tərəfindən soyqırımı qurbanlarının xatirəsi dərin hüznlə anılır.

Kursantların anım mərasimində iştirakı gənc nəslin milli-mənəvi dəyərlərə bağlılığının, vətənpərvərlik ruhunun və tarixi yaddaşa hörmətinin bir nümunəsidir.

# Azərbaycanda ağız və üz-çənə cərrahiyyəsinin zəngin tarixi var





Hər il Beynəlxalq Ağız və Üz-Çənə Cərrahiyyəsi Günü qeyd olunur və bu əlamətdar gün ağız-üz-çənə cərrahlarının səhiyyə sistemindəki mühüm rolunu bir daha vurğulayır. Bu münasibətlə ATU-nun Tədris Cərrahiyyə Klinikasında Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının təşkilatçılığı ilə geniş elmi tədbir keçirilib.

Tədbiri açan kafedranın müdiri, professor Çingiz Rəhimov iştirakçıları salamlayaraq qeyd edib ki, bu gün təkcə peşə bayramı deyil, həm də ixtisasın elmi, klinik və sosial əhəmiyyətinin cəmiyyətə çatdırılması üçün mühüm platformadır. O vurğulayıb ki, ağız və üz-çənə cərrahiyyəsi həm stomatologiya, həm də tibb elmlərini birləşdirən unikal ixtisasdır. Bu sahə ağız və üz-çənə nahiyəsinin sərt və yumşaq toxumalarının xəstəlikləri, zədələnmələri, anadangəlmə və qazanılmış qüsurları, eləcə də estetik və funksional pozuntularının diaqnostika və müalicəsini əhatə edir. Cərrahiyyə sistemində bu sahə müstəqil ixtisas kimi qəbul olunub. Təəssüf ki, cəmiyyətin bir qismi bu ixtisasın fəaliyyət spektrinin genişliyi barədə tam məlumatlı deyil. İctimai maarifləndirmə isə xəstələrin düzgün mütəxəssis seçiminə və vaxtında tibbi yardıma müraciət etməsinə mühüm töhfə verir.

Ağız və üz-çənə cərrahiyyəsinin əsas fəaliyyət sahələrinə diş cərrahiyyəsi, diş implantasiyası, periodontoloji cərrahiyyə, protezönü cərrahiyyə, diş mənşəli və qeyri-diş mənşəli infeksiyaların cərrahiyyəsi, ağız və üz-çənə nahiyəsinin şiş xəstəlikləri, travmaları, həmçinin üzün rekonstruktiv və estetik cərrahiyyəsi daxildir. Bunlarla yanaşı, gicgah-çənə oynağı patologiyaları, neyrostomatologiya, üz ağrıları və ortoqnatik cərrahiyyə də bu sahənin prioritet istiqamətləridir. Professor bildirib ki, müasir ağız və üz-çənə cərrahiyyəsi sürətlə inkişaf edir. Son illərdə endoskopik və lazer cərrahiyyəsi, mikrocərrahiyyə, distraksiya osteogenezi, əməliyyatların virtual modelləşdirilməsi, naviqasiya ilə aparılan cərrahiyyə, toxuma mühəndisliyi və kök hüceyrə texnologiyalarının tətbiqi sahələrində ciddi nailiyyətlər əldə olunub.

Azərbaycanda bu ixtisasın zəngin tarixi və güclü elmi bazası mövcuddur. Ölkəmizdə ağız və üz-çənə cərrahiyyəsinin banisi professor Gülü Qurbanov hesab olunur. O, II Dünya müharibəsi illərində yaralıların müalicəsində fəal iştirak edib, öz təcrübəsinə əsaslanaraq "Odlu silahla yaralanmalardan sonra üzün yumşaq toxumalarında plastika əməliyyatlarının üsulları" adlı, dünya plastik cərrahiyyəsi klassikasına daxil olmuş fundamental əsərini hazırlayıb.

Ç.Rəhimov çıxışında vurğulayıb ki, Universitetdə akademik fəaliyyət 1956-cı ildə professor G.Qurbanovun rəhbərliyi ilə "Cərrahi stomatologiya" kafedrasının yaradılması ilə başlayıb. Bu sahənin formalaşmasında dosentlər Baxış Hüseynov, Cəfərağa Səmədov, professorlar Teymur Babayev, Oqtay Seyidbəyov, Yunus Yusubov və İbrahim Yıldırım kimi görkəmli mütəxəssislərin mühüm xidmətləri olub. Hazırda ATU-nun Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşları elmi yeniliklərin tətbiqi, yüksək ixtisaslı kadr hazırlığı və mürəkkəb cərrahi müdaxilələrin uğurlu icrası ilə milli məktəbin inkişafına mühüm töhfə verir.

2008-ci ildən "üz-çənə cərrahiyyəsi" Səhiyyə Nazirliyinin ixtisaslar siyahısında müstəqil ixtisas kimi yer alıb, 2010-cu ildən isə Stomatologiya fakültəsinin məzunları 5 illik rezidentura proqramı vasitəsilə "həkim, üz-çənə cərrahı" adını qazanmağa başlayıblar. Hazırda ölkəmizdə 60-dan çox üz-çənə cərrahı və 200-ə yaxın ağız cərrahı fəaliyyət göstərir.

2017-ci ildə Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyəti (AzOMFS) təsis olunub və yaradıldığı gündən beynəlxalq əməkdaşlığı prioritet istiqamət kimi müəyyən edib. AzOMFS 2018-ci ildə rəsmi olaraq International Association of Oral and Maxillofacial Surgeons (İAOMS) və European Association for Cranio-Maxillo-Facial Surgery (EACMFS) kimi beynəlxalq qurumlar tərəfindən tanınıb. Cəmiyyət tərəfindən 2019, 2023 və 2025-ci illərdə beynəlxalq konqreslər keçirilib. Azərbaycan mütəxəssislərinin beynəlxalq nüfuzunun göstəricisi olaraq professor Ç.Rəhimov Dünya Üz-Çənə Cərrahları Kollecinin I vitse-prezidenti seçilib.

AzOMFS I və II Qarabağ müharibələrində zəngin təcrübə qazanmış üzvlərinin fəal iştirakı ilə hərbi dövrdə yüksək peşəkarlıq nümayiş etdirib. Cəmiyyət humanitar fəaliyyəti ilə də fərqlənərək ukraynalı həmkarlarına osteosintez əməliyyatları üçün 7000 manatdan artıq dəyərdə tibbi dəstək paketi təqdim edib, Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar isə qardaş ölkənin müvafiq qurumunun hesabına 5500 ABŞ dolları məbləğində vəsait köçürüb.

Tədbirin davamında kafedranın professoru Elçin Əhmədov, dosentlər Nigar Sultanova, Fərman Həsənov, Mirvari Əliyeva, İsmayıl Fərzəliyev və Toğrul Əliyevin öz elmi-tədqiqat işləri barədə məruzələri dinlənilib. Elmi toplantıda Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva da iştirak edib.

## Kardiometabolik və Nadir Xəstəliklər Konqresi keçirilib



Azərbaycan Kardiologiya Cəmiyyəti (AKC) tərəfindən "Hilton" otelində Kardiometabolik və Nadir Xəstəliklər Konqresi təşkil olunub. Tədbir Səhiyyə Nazirliyi tərəfindən 14 DTT (Davamlı Tibbi Təhsil) kredit balı ilə akkreditasiya edilib.

Qeyd edək ki, bu konqres AKC-nin iki ildən bir dəyişən yeni rəhbər heyəti üçün ilk genişmiqyaslı elmi tədbir olub. Konqres çərçivəsində kardiometabolik və nadir xəstəliklər sahəsində aktual elmi mövzular, müasir diaqnostik və müalicə yanaşmaları, klinik praktikada tətbiq olunan yeniliklər geniş şəkildə müzakirə edilib.

Tədbirin açılış mərasimində AKC sədri, tibb elmləri doktoru Yasmin Rüstəmova, Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev, Azərbaycan Tibb Universitetinin Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultan və Elmi-Tədqiqat Kardiologiya İnstitutunun direktoru, professor Gülnaz Dadaşova çıxış ediblər. Çıxışlarda ölkəmizdə kardiologiya sahəsində aparılan islahatlar, elmi potensialın gücləndirilməsi və multidissiplinar əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

İki gün davam edən konqresdə arterial hipertenziya, hiperlipidemiya, kardiorenal sindrom, şəkərli diabet, nadir ürək-damar xəstəlikləri və digər aktual mövzular üzrə panel iclasları və klinik hal sessiyaları təşkil olunub. Eyni zamanda, Cəmiyyətin konqresləri tarixində ilk dəfə olaraq hər günün sonunda "Günün icmalı" təqdim edilib. Bu format çərçivəsində gün ərzində müzakirə olunan əsas məqamlar ümumiləşdirilərək iştirakçılara çatdırılıb, elmi məlumatların sistemləşdirilməsi və yadda saxlanılması baxımından əlavə dəyər yaradılıb. Yerli mütəxəssislərin iştirakı ilə aparılan müzakirələr praktik yanaşmaların təkmilləşdirilməsinə və sübutlara əsaslanan tibbi qərarların təşviqinə xidmət edib.

# Oftalmoloqlar bir arada

**Əməkdar elm xadimi, professor Zəhra Quliyevanın xatirəsinə həsr olunmuş Azərbaycan Gənc Oftalmoloqlarının XVII konfransı və III Forumu keçirilib. Tədbir Səhiyyə Nazirliyi, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin (AOC) birgə təşəbbüsü ilə reallaşıb.**



Konfransda çıxış edən AOC Gənc Oftalmoloqlar komitəsinin koordinatoru Emin Əlihüseynli komitənin təsis edilməsi, gənclərin komitənin işinə cəlb edilməsi, həmçinin gələcək planlar barədə iştirakçılara məlumat verib.

Azərbaycan Gənc Oftalmoloqlarının Forumu akademik Zərifə Əliyeva adına Azərbaycan Milli Oftalmologiya Mərkəzinin direktoru, AMEA-nın müxbir üzvü Elmar Qasımovun dəstəyi ilə həyata keçirilib.

AOC-un sədr müavini Yazgül Abdıyeva, Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının müdiri, professor Paşa Musayev, həmçinin kafedranın dosenti Səriyə Quliyeva professor Zəhra Quliyevanın həyatı, zəngin elmi irsindən bəhs ediblər.

Tədbirdə universitetimizin Oftalmologiya kafedrasının və Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsinin peşəkar həkimləri təmsil olunublar. Oftalmologiya şöbəsinin müdiri, dosent Qurban İsmayılov, dosent Səriyə Quliyeva, assistent Nigar Sadıqova, baş laborant Gülnar Əliyeva, baş laborant Firuzə Həsənova, rezidentlər Ləman Müzəffərli, Xumar İbrahimova və Valeh Bağırov tədbirdə iştirak ediblər.

Tədbirdə oftalmologiyanın müasir problemləri, innovativ cərrahi və diaqnostik metodlar, süni intellektin göz xəstəliklərinin diaqnostikasında tətbiqi, müxtəlif klinik hallar və digər aktual mövzular barədə məruzələr oxunub.

Bu il konfrans çərçivəsində ilk dəfə olaraq "Gənc Retina Mütəxəssislərinin Klubu" təşkil olunub.

Builki forumun əsas məqsədi süni intellektin müasir oftalmologiyada tətbiq imkanlarını gənc mütəxəssislərin diqqətinə çatdırmaq, klinik praktikada və elmi tədqiqatlarda bu texnologiyaların rolunu müzakirə etmək, eləcə də gənc oftalmoloqların peşəkar inkişafında innovativ yanaşmaların əhəmiyyətini vurğulamaqdır.

# Pediatriyada süni intellektə həsr olunmuş konfrans baş tutub



**Mingəçevir şəhərində Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB və "Lasomedgroup"un dəstəyi ilə Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) "Milli Pediatriya Akademiyası-95 il" yubiley layihəsi çərçivəsində "Ailə təbabətində pediatriya: Süni intellekt və rəqəmsal səhiyyənin rolu" mövzusunda növbəti regional konfrans keçirilib.**

Əsas məqsədi müasir ailə təbabətində uşaq sağlamlığının qorunması strategiyalarını təkmilləşdirmək, pediatriyada süni intellekt və rəqəmsal səhiyyənin təqdim etdiyi geniş imkanları, habelə bu sahədəki potensial riskləri və praktik tətbiq üsullarını sübutlu təbabətə əsaslanmaqla dərindən dəyərləndirmək olan konfransın açılışında APA-nın sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə layihənin əhəmiyyətindən danışıb. Qeyd edib ki, Bakıda və regionlarda təşkil olunan bu konfranslar mütəxəssislərin pediatriya sahəsində aktual problemlər, innovativ həllər və yeni yanaşmalara dair dialoquna imkan yaradan mühit formalaşdırır.

"Ailə təbabətində pediatriya: Süni intellekt və rəqəmsal səhiyyənin rolu" mövzusunda təqdimatla da çıxış edən alim müasir pediatriyanın təməlində duran "evidence-based medicine" (sübutlara əsaslanan tibb) yanaşmasının əhəmiyyətinə toxunub. Bildirib ki, uşaq orqanizminin həssaslığı və müalicənin uzunmüddətli təsirləri bu sahədə etik və hüquqi məsuliyyəti artırır.

T.Tağızadə qeyd edib ki, uşağın inkişaf göstəricilərinin elektron qaydada izlənilməsi patologiyaların erkən diaqnostikasında mühüm addımdır. O, mobil tətbiqlər vasitəsilə valideynlərlə qurulan davamlı əlaqə və telekonsultasiya xidmətlərinin ucqar bölgələrdə yaşayan sakinlər üçün ixtisaslaşmış pediatrik yardımı daha əlçatan etdiyini deyib. Süni intellektin pediatriyadakı tətbiqi istiqamətlərinə toxunan alim, bu texnologiyanın neyroinkişaf pozuntularının erkən aşkarlanması, habelə gələcəkdə yarana biləcək obezite və diabet risklərinin proqnozlaşdırılmasında əvəzsiz rol oynadığını diqqətə çatdırıb. Bununla yanaşı, texnoloji tərəqqi nə qədər sürətli olsa da, insan həyatı ilə bağlı yekun qərarı süni intellektin deyil, həkimin verməli olduğunu söyləyib.

Konfransda II Uşaq xəstəlikləri kafedrasının dosentləri Ülviyyə Hacıyeva, Fəxriyyə Məmmədova, Lalə Hidayətova və Aytəkin Adilova da aktual mövzularda çıxış ediblər.

Səhiyyə Nazirliyi tərəfindən 12 DTT balı ilə qiymətləndirilən tədbirin II sessiyasında Milli Hematologiya və Transfuziologiya Mərkəzindən professor Mireldar Babayev, eləcə də dosent Səbinə Cəfərova, invaziv uşaq kardioloqu Elnur İmanov və uzman pediatr Nazlı Şirinovanın məruzələri dinlənilib.

**İctimai fənlər kafedrasının dosenti Nigar Ələkbərova zorakı cinayətlərin yalnız tibbi və hüquqi deyil, həm də ciddi iqtisadi nəticələr doğurduğunu açıqlayıb. Onun sözlərinə görə, hər bir zorakılıq faktı dövlət büdcəsinə birbaşa və dolayı xərclər şəklində əhəmiyyətli yük yaradır.**

# Zorakı cinayətlərin iqtisadi nəticələri kompleks yanaşma tələb edir

Mütəxəssis qeyd edib ki, birbaşa xərclərə zərərçəkənlərin müalicəsi, reabilitasiyası, məhkəmə-tibbi ekspertizalar, hüquq-mühafizə orqanlarının və məhkəmələrin fəaliyyəti daxildir. Dolayı xərclər isə əmək qabiliyyətinin itirilməsi, əlillik, ailə gəlirlərinin azalması və uzunmüddətli sosial dəstək ehtiyacı ilə bağlıdır. Bəzi beynəlxalq araşdırmalara əsasən, zorakı cinayətlərin iqtisadi zərəri bir sıra ölkələrdə ÜDM-in əhəmiyyətli hissəsini təşkil edir.

N.Ələkbərova vurğulayıb ki, məhkəmə təbabəti bu prosesdə mühüm rol oynayır. Ekspert rəyləri yalnız hüquqi sənəd deyil, eyni zamanda iqtisadi və statistik məlumat mənbəyidir. Toplanan məlumatlar dövlət proqramlarının hazırlanması, kompensasiya mexanizmlərinin qurulması və sosial dəstək tədbirlərinin planlaşdırılması üçün əsas baza rolunu oynayır.



Onun fikrincə, məhkəmə-tibbi məlumatların iqtisadi təhlillə inteqrasiyası sosial siyasətin daha effektiv qurulmasına imkan verir. Bu isə zorakılıq qurbanlarına dəstək proqramlarının, profilaktik tədbirlərin və penitensiar sistem xərclərinin daha düzgün planlaşdırılmasına şərait yaradır.

Dosent hesab edir ki, gələcəkdə vahid məlumat bazalarının yaradılması, multidissiplinar yanaşmanın tətbiqi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi zorakı cinayətlərin iqtisadi və sosial nəticələrinin azaldılmasına töhfə verə bilər.



# Hərbi tibb fakültəsində rezidentlərin məzun mərasimi keçirilib

Hərbi tibb fakültəsinin Rezidentura və təkmilləşdirmə şöbəsinin 13-cü buraxılış məzunlarına həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbir fakültənin tədris binasında yerləşən şəhid tibb xidməti baş leytenantı Aqşin Ənvərli adına mühazirə zalında təşkil olunub.

Mərasimi fakültənin rəisi, tibb xidməti polkovniki Məharət Rzayevin açılış nitqi ilə başlayıb. O, rezidentura təhsilini uğurla başa vuran həkimlərin Silahlı Qüvvələr üçün yüksək ixtisaslı tibbi kadrlar kimi formalaşmasının dövlət və ordu üçün strateji əhəmiyyət daşıdığını vurğulayıb.

Milli Müdafiə Universiteti rektorunun Elm və təhsil üzrə müavini, professor, general-mayor Arif Həsənov, ATU-nun Rezidentura və magistratura şöbəsinin müdiri, dosent İlhamə Mustafayeva, Müdafiə Nazirliyi Tibb İdarəsinin rəisi, tibb xidməti polkovniki Anar İsmayılov, eləcə də Ədliyyə Nazirliyi Tibb Baş İdarəsi rəisinin müavini Çingiz Əlləzov çıxış edərək məzunları təbrik edib, onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıblar.

Çıxışlarda bildirilib ki, ixtisaslı hərbi həkim kadrlarının hazırlanması müasir dövrdə xüsusi əhəmiyyət kəsb edir və rezidentura mərhələsi bu prosesin əsas və həlledici hissəsidir. Qeyd olunub ki, hərbi tibb sahəsində peşəkar kadr potensialının gücləndirilməsi Silahlı Qüvvələrin döyüş qabiliyyətinin artırılmasında və şəxsi heyətin sağlamlığının qorunmasında mühüm rol oynayır.

Tədbirin sonunda rezidentura təhsilini başa vuran həkim mütəxəssislərin növbəti xidmət yerləri elan edilib. Məzunlara döş nişanı və plaket təqdim olunaraq, hərbi həkim kimi yeni xidmət mərhələsinə qədəm qoymaları münasibətilə təbriklər çatdırılıb.

Beləliklə, Hərbi tibb fakültəsinin 13-cü buraxılışı Azərbaycan Silahlı Qüvvələrinin səhiyyə sisteminə yeni, peşəkar və məsuliyyətli həkim heyəti qazandırıb.

# Yapon mütəxəssislər yeni sistemin üstünlüklərindən danışıb

**Universitetimizdə ana və uşaq sağlamlığı, həmçinin tibb bacılarının davamlı peşə təhsili sahəsində İnformasiya-Kommunikasiya Texnologiyalarının (İKT) tətbiqi imkanlarına həsr olunmuş tədbir keçirilib. Tədbiri universitetin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Törə Sadıqova açaraq iştirakçıları salamlayıb və Yaponiyanın "Digital Knowledge" Co. Ltd və "Vexon İnternational" şirkətlərinin mütəxəssislərini təqdim edib.**



"Digital Knowledge"in nümayəndəsi Yoshihiro Goyda çıxışında innovativ elektron platformaların tətbiqi, ana və uşaqlar üçün rəqəmsal sağlamlıq kartlarının hazırlanması və kağızsız tibbi idarəetmə sisteminə keçid məsələlərinə toxunub. O bildirib ki, layihənin əsas məqsədi kağız üzərində aparılan ana-uşaq sağlamlıq kitabçalarını elektron formata çevirməkdir. Sistem sayəsində məlumatlar smartfon və kompüter üzərindən rahatlıqla izlənilə və idarə oluna bilər. Y.Goyda əlavə edib ki, bu platforma yalnız hamiləlik və doğuşdan sonrakı dövrü deyil, insanın bütün ömrü boyu sağlamlıq göstəricilərinin izlənməsini təmin edəcək.

Daha sonra "Vexon İnternational" şirkətinin mütəxəssisi Kneji İchimura tibb bacılarının inkişafı və sertifikasiyası ilə bağlı çıxış edib. O bildirib ki, Azərbaycanda tibb bacıları üçün 5 ildən bir sertifikasiya imtahanları keçirilir və imtihandan əvvəl 1-2 həftəlik təkmilləşdirmə kursları təşkil olunur. K.İchimura vurğulayıb ki, bu müddət davamlı peşəkar inkişaf üçün kifayət etmir və tibbi personalın gündəlik təhsili vacibdir.

Mütəxəssis təqdim etdikləri layihənin tibb bacılarının pilləli şəkildə bilik və bacarıqlarının artırılması istiqamətində faydasını izah edib və Yaponiya təcrübəsindən nümunələr gətirib.

# Biotibbi akademik yazı ilə bağlı vacib məqamlar diqqətə çatdırılıb



**Tədris Terapevtik Klinikada biotibbi akademik yazı mövzusunda təlim keçirilib. Təlim Genovise Academic Consulting şirkətinin təsisçisi, biologiya üzrə fəlsəfə doktoru Nigar Kərimova tərəfindən aparılıb.**

Tədbirin təşkilatçıları Əqli mülkiyyətin inkişafı, qrant, patent və elmi ekspertiza şöbəsinin müdiri Aygün Kazımlı və Elmimetrik araşdırma və elmi əməkdaşlıq şöbəsinin müdiri Fatimə Seyidbəyova olub.

A.Kazımlı çıxışında akademik yazı bacarıqlarının inkişafının müasir elmi fəaliyyətin əsas prioritetlərindən olduğunu vurğulayıb. O, təlimçinin beynəlxalq akademik təcrübəsinin kursun praktik əhəmiyyətini artırdığını qeyd edərək bildirib ki, müasir dövrdə akademik yazı bacarığı hər bir tədqiqatçı üçün zəruri kompetensiyadır.

Sonra çıxış edən Nigar Kərimova akademik yazının yalnız mətn yazmaq deyil, strukturlaşdırılmış və əsaslandırılmış elmi arqument qurmaq prosesi olduğunu diqqətə çatdırıb. Təlim çərçivəsində elmi məqalənin məntiqi quruluşu, IMRAD modeli, problemin düzgün formalaşdırılması, elmi boşluğun göstərilməsi, məqsəd və hipotezin müəyyənləşdirilməsi kimi əsas məsələlər izah olunub.

Eyni zamanda müxtəlif məqalə növləri, jurnal seçimi strategiyası və təqdim olunan işin məzmununa uyğun "manuscript type" müəyyənləşdirilməsinin əhəmiyyətini vurğulayan təlimçi qeyd edib ki, tədqiqatın mahiyyətinə uyğun məqalə növünün seçilməsi dərc olunma ehtimalına birbaşa təsir göstərir. N.Kərimova akademik yazıda müzakirə hissəsinin xüsusi rolunu vurğulayaraq, ədəbiyyatın sadəcə xülasə deyil, sintez edilməsinin vacibliyini önə çəkib. O, elmi mətnin məntiqi ardıcıllıq, dəqiq metodoloji təsvir və əsaslandırılmış nəticələrlə seçilməli olduğunu bildirib.

Təlimdə süni intellekt alətlərinin akademik yazıda düzgün və etik istifadəsi məsələsinə də toxunan təlimçi qrammatik düzəlişlər, cümlə strukturunun təkmilləşdirilməsi, abstraktın redaktəsi və ədəbiyyat axtarışında bu alətlərin köməkçi vasitə kimi istifadə oluna biləcəyini deyib. Eyni zamanda o, tam məqalənin avtomatik yazdırılmasının və uydurma istinadlardan istifadənin ciddi etik pozuntu olduğunu, həmçinin ağır nəticələrə səbəb ola biləcəyini diqqətə çatdırıb.

# Ensefalit - mərkəzi sinir sistemini zədələyən ağır xəstəlikdir

## Aygün Musayeva: Postensefalitik sindrom aylarla, hətta illərlə davam edə bilər



2013-cü ildən etibarən hər il 22 fevral Ümumdünya Ensefalitlə Mübarizə Günü kimi qeyd olunur. Bu günün əsas məqsədi insanları xəstəliyin təhlükələri barədə məlumatlandırmaq, yeni yoluxma hallarının qarşısının alınmasına nail olmaq və xəstəlikdən əziyyət çəkən şəxslərə dəstək göstərməkdir.

Ensefalit xəstəliyinin klinik əlamətləri, əsas yaranma səbəbləri nədir? Profilaktika və diaqnostika səviyyəsi qənaətbəxşdirmi? Bu və digər suallarımızı universitetimizin Tədris Terapevtik Klinikasının Nevrologiya şöbəsinin müdiri, dosent Aygün Musayeva cavablandırdı.

Dosent bildirdi ki, ensefalit mərkəzi sinir sisteminin zədələnməsi ilə müşayiət olunan, beynin iltihabı ilə xarakterizə olunan ciddi xəstəliklər qrupudur: "Ensefalit ilkin və ya ikincili, virus və ya bakterial, həmçinin yoluxucu-allergik və toksik mənşəli ola bilər. Ən ağır formalarından biri gənələrin dişləməsi ilə ötürülən gənə ensefalitidir. Bu xəstəlik sinir hüceyrələrini zədələyir, həm baş beyin, həm də onurğa beyni strukturlarında ciddi dəyişikliklər yaradır. Bu xəstəliyin nəticələri tam sağalma, müxtəlif dərəcədə əlillik və hətta ölüm ola bilər. İnfeksiyanın əsas mənbəyi tayqa gənəsidir. Xəstəlik mövsümi xarakter daşıyır. İnfeksiya üçün ən təhlükəli ərazilər əsasən Şimali, Şərqi və Mərkəzi Avropada yerləşən bir neçə Avropa ölkəsidir".

Mütəxəssisin sözlərinə görə, ümumiyyətlə müxtəlif etiologiyalı ensefalitlərin erkən mərhələsində əsasən baş ağrısı, ürəkbulanma, qusma, hərarətin yüksəlməsi, əzələ və oynaq ağrıları, həmçinin yuxarı tənəffüs yolları və mədə-bağırsaq sisteminin zədələnməsi ilə bağlı əlamətlər müşahidə olunur. Ensefalitlər zamanı şüurun müxtəlif dərəcədə pozulması, hərəkət və koordinasiya çətinlikləri, görmə pozğunluqları, eləcə də mərkəzi sinir sisteminin ocaqlı zədələnmə simptomları kimi nevroloji çatışmazlıqlar inkişaf edə bilər. Ensefalitin diaqnostikası xəstənin şikayətləri və klinik əlamətləri, nevroloji müayinə, MRT və KT görüntüləri, laborator analizlər və onurğa beyni mayesinin müayinələri əsasında aparılır.

A.Musayeva vurğuladı ki, xəstəliyin vaxtında diaqnozu və tibbi yardıma erkən müraciət həyati əhəmiyyət daşıyır: "Gecikmiş müalicə ağır, geridönməz nevroloji zədələnmələrə, əlilliyə və ya ölümə səbəb ola bilər. Əsas ağırlaşmalara davamlı ifliclər, əqli və psixi pozuntular, epileptik sindrom və xroniki baş ağrıları daxildir. Xəstəliyin ilk bir neçə günü ərzində müalicəyə başlanılmazsa, ağırlaşma riski əhəmiyyətli dərəcədə artır. Postensefalitik sindrom aylarla, hətta illərlə davam edə bilər və geniş reabilitasiya tələb edir".

Gənə ensefalitinin profilaktikası barədə danışan həkim əlavə etdi: "Xəstəliyin geniş yayıldığı ərazilərə səfər etməyi planlaşdıran şəxslərə peyvənd olunmağı tövsiyə edirik. Təbii mühitdə olarkən qoruyucu geyim geyinmək, meşə və parkdan qayıtdıqdan sonra bədəni diqqətlə gənələrə görə yoxlamaq, xüsusilə əlçatmaz yerlərə diqqət yetirmək vacibdir. Bu sadə, amma effektiv tədbirlər yoluxma riskini azaltmağa və xəstəliyin ağırlaşmalarının qarşısını almağa kömək edir".

Sonda isə mütəxəssis vurğuladı ki, maarifləndirmə, erkən diaqnostika və profilaktik tədbirlər xəstəliyin yayılmasının qarşısının alınmasında və əhalinin sağlamlığının qorunmasında mühüm rol oynayır.

# Mədə və yoğun bağırsaq haqda ən düzgün məlumatı endoskopiya verir



**Son dövrlərdə geniş yayılmış xəstəliklər içərisində mədə-bağırsaq patologiyaları da xüsusi yer tutur. Bu patologiyaların aşkarlanması üçün endoskopik müayinələrin tətbiqi dünyada qızıl standart kimi qəbul olunub. Əsasən qastroskopiya və kolonoskopiya müayinə üsullarından geniş istifadə edilir.**

Məlum olduğu kimi, qastroskopiya ilə həzm sisteminin üst hissəsini - qida borusunu, mədəni, onikibarmaq bağırsağı müayinə etmək mümkündür. Bu üsul vasitəsilə qarın ağrısını, mədə-bağırsaqda qanaxma şübhəsini, anemiyanı, iltihabı, həzm sistemi xərçəngini və başqa simptomları aşkar etmək olur. Xəstəliyin dəqiq diaqnozunu qoymaq üçün qastroskopiya müayinəsi zamanı şübhəli bilinən yerlərdən biopsi götürülür.

Mədə-bağırsaq patologiyalarında zond müayinəsinin vacibliyini söyləyən ATU-nun Tədris Cərrahiyyə Klinikasının cərrah-endoskopisti Fərahim Məmmədzadə mədə ilə bağlı qıcqırma, gəyirmə, qidayla əlaqəli ağrı zamanı qastroskopiya, qarının aşağı hissələrində ağrılar olduqda, qarın işməsi, qəbizlik və digər hallarda isə kolonoskopiya müayinəsinə ehtiyac yarandığını deyib. Onun sözlərinə görə, bağırsaqdan qan gəldikdə və yaxud xəstənin bayıra getməyində problem yarandıqda da kolonoskopiya müayinəsi tövsiyə edilir.

Həkim qastroskopiya müayinəsinin yaşdan asılı olmayaraq hər kəsə tətbiq edildiyinə, zond müayinəsinin aparılma ardıcıllığına da toxunub: "Bəlli bir yaşa, deyək ki, 20 yaşına çatmış adamların şikayəti oldu-olmadı, bir dəfə mədə və yoğun bağırsaq müayinəsindən keçməsi məsləhətdir. Bu müayinələr Amerikada əvvəllər 50 yaşlı insanlarda məcbur aparılırdı. Nəzərə alınırdı ki, poliplər ola bilər. Polip isə xərcəngönü xəstəlik sayılsa da, çox vaxt ağrı vermir, əlamətləri gizli qalır. Ona görə də belə durumda olan şəxslərin gələcəkdə problem yaşamaması üçün indi o yaş həddi 35-ə qədər endirilir. Amma ilk növbədə bu müayinələr şikayəti olan adamlara tətbiq edilməlidir. Onikibarmaq bağırsağın xoraları isə ciddi ağrı verən xəstəlikdir. Hətta gecə yuxudan ayıldan ağrılar verir. Amma bəzi adamlarda tam ağrısız keçir ki, bu da qəfləti qanaxma, bağırsaq deşilməsi ilə nəticələnir. Və yaxud xoranın öz-özünə sağalması hesabına mədə çıxacağının daralması ağırlaşmalara gətirib çıxarır. Ona görə də ara-sıra müayinələr məqsədəuyğundur. Lakin bir dəfə müayinədən keçmiş adamı heç bir şikayəti, yarası və ya ciddi nəzarət tələb edən durum yoxdursa, tez-tez müayinə etmək lazım deyil".

Mütəxəssis onu da qeyd edib ki, ürək çatışmazlığı və koma vəziyyətində olan şəxslərin qastroskopik müayinəsi yalnız həkim göstərişindən sonra ola bilər: "Əgər xəstənin durumu ciddidirsə, qanaxma və həyati təhlükə yaradan əlamətlər varsa, müayinə üçün kardioloqlar qərar verməlidir. Digər hallarda isə bu müayinənin aparılması ciddi əks göstəriş deyil. Yəni xəstədə şəkərin, təzyiqin olması əks göstəriş sayılmır".

Kolonoskopiya müayinə üsulu vasitəsilə gizli qanaxma, iltihab, şiş və digər patologiyaların müəyyən edildiyini də diqqətə çatdıran cərrah-endoskopist hər iki müayinə zamanı mədənin və yaxud bağırsağın deşilmə risklərindən də söz açıb: "Belə risklər nadir hallarda baş verir. Əgər həkimin yetərincə təcrübəsi varsa, mədədə və bağırsaqda deşilmə riski çox aşağıdır. Təbii ki, istisnalar mümkündür. Məsələn, onikibarmaq bağırsağın xorası daralma vəziyyətindədirsə və ya xora çox dərindirsə, müayinə zamanı hava vurulur. Bunun nəticəsində bağırsaq deşilməsi ola bilər. Daha ciddi ağırlaşmalar, risklər gözlənilmir".

F.Məmmədzadə zond müayinəsinin digər müayinə üsulları ilə əvəz edilib-edilməməsinə də aydınlıq gətirib. Bildirib ki, ultrasəs müayinə adətən boşluqlu orqanları yaxşı göstərmədiyindən, endoskopik müayinənin yerini vermir: "Kompüter tomoqrafiyası və yaxud da MRT müayinəsində bağırsaq divarının qalınlaşması aşkar olunarsa və xərçəngə şübhə yaranarsa, eləcə də divertikulun iltihablaşması prosesində, hansısa törəmə görünəndə xəstə endoskopiyaya göndərilir. Mədə və yoğun bağırsaq haqqında ən düzgün məlumatı endoskopiya verir. Yeni metodlar da var və hal-hazırda kapsul endoskopiyası daha məsləhətli müayinə üsuludur".

Unutmaq olmaz ki, vaxtında aşkar edilən hər hansı xəstəliyi müalicə etmək daha asandır. Bu nöqteyi-nəzərdən effektiv müayinə üsullarından yararlanmaq sağlamlığımızın əsas şərtlərindən biridir.

# Dermatologiyanın aktual problemi – göbələk xəstəlikləri



**Mikozlar – patogen və şərti patogen göbələklərin müxtəlif cins və növləri tərəfindən törədilən insan və heyvanların göbələk xəstəlikləridir. ÜST-nin məlumatlarına görə, Yer kürəsi əhalisinin orta hesabla 1/4 hissəsi mikotik zədələnmələrdən əziyyət çəkir.**

Dərinin və onun törəmələrinin göbələk infeksiyası ilə zədələnməsi dermatomikozlar kimi təsnif edilir. Müasir dermatologiyada dermatomikozlar bakterial və virus infeksiyaları ilə yanaşı, az əhəmiyyətli olmayan mühüm tibbi-sosial problem hesab olunur. Statistik məlumatlara görə, bütün dermatozların 37-42%-i dermatomikozların payına düşür.

Dermatomikozlarla yüksək xəstələnmə səviyyəsi çox vaxt qarışıq göbələk infeksiyaları, xüsusilə bakterial floranın qoşulması ilə əlaqədar olur. Bu hal xəstəliyin gedişini əhəmiyyətli dərəcədə ağırlaşdırır, klinik mənzərəni təhrif edir, abortiv formaların yaranma tezliyini artırır və antifunqal terapiyaya taktik yanaşmanı çətinləşdirir.

Dermatomikozların fonunda bir sıra dermatozlar daha ağır klinik gedişatla müşayiət olunur. Xüsusilə pemfiqus, psoriaz, qırmızı yastı dəmrov, atopik dermatit, mikrob ekzeması, keratodermiyalar (həm qazanılmış, həm də irsi).

Azərbaycanda XX və XXI əsrin müxtəlif illərində dermatomikozların yayılma səviyyəsi, klinik-mikoloji xüsusiyyətləri və antifunqal terapiyanın effektivliyi tədqiq edilmişdir.

Dermatomikozların təsnifatı qeyri-sabitdir, bu isə mikologiya sahəsində mövcud ayrı-ayrı müddəaların davamlı yenidən nəzərdən keçirilməsi ilə əlaqədardır. Patoloji prosesin dərinliyinə və daxili orqanların prosesə cəlb olunma dərəcəsinə əsasən dermatomikozlar aşağıdakı qruplara bölünür:

Səthi dermatomikozlar – dərinin səthi mikozları (DSM) epidermis səviyyəsində dərinin ilkin zədələnməsi, dərin dərialtı dermatomikozlar dərinin derma/hipoderma qatlarının, eləcə də onlara bitişik yumşaq toxumaların ilkin zədələnməsi, dərin sistem dermatomikozlar isə daxili orqanların ilkin zədələnməsi, hematogen və limfogen disseminasiya nəticəsində dərinin prosesə cəlb olunması ilə xarakterizə olunur.

Aparılan tədqiqatlar DSM olan pasiyentlər üzərində həyata keçirilmişdir. Dərinin səthi mikozları dermatomikozların mühüm bir hissəsini (46%-ə qədər) təşkil edir və Azərbaycan Respublikasında son dərəcə geniş yayılmışdır ki, bu da regionun müxtəlif ekoloji, iqlim və coğrafi şərait ilə izah olunur.

Sosial və iqtisadi şəraitdə baş verən dəyişikliklər, habelə davranış amilləri DSM-in yayılma səviyyəsinin artmasına səbəb olmuşdur. DSM üzrə klinik-epidemioloji vəziyyətin optimallaşdırılması məqsədilə səhiyyə sahəsində dövlət səviyyəsində və əlaqələndirilmiş proqramlar çərçivəsində profilaktik tədbirlərin gücləndirilməsi zəruridir. Bu proqramlar ilkin və ikincili profilaktik tədbirlərə bölünür.

Birincili xəbərdarlıq (birincili profilaktika) - mikotik infeksiyanın yayılmasının qarşısını almağa və yoluxma riskinin azaldılmasına yönəlmiş epidemioloji cəhətdən əsaslandırılmış tədbirləri əhatə edir. Həmçinin kontakt xarakterli idman növləri üzrə fəaliyyət göstərən klublarda (sambo, cüdo, güləş, karate və s.), eləcə də hərbi qulluqçular arasında yoluxmanın minimuma endirilməsi nəzərdə tutur.

Diaqnostik yarımsistem çərçivəsində epidemioloji analiz (retrospektiv və operativ), epidemioloji vəziyyətin qiymətləndirilməsi (epidemioloji diaqnozun qoyulması), həmçinin epidemioloji vəziyyətin inkişaf proqnozunun hazırlanması həyata keçirilir.

Azərbaycan Respublikasının səhiyyə praktikasında epidemioloji nəzarət sisteminin tətbiqi, bir tərəfdən müxtəlif regional proqramların effektivliyinin qiymətləndirilməsi və təhlilinə imkan verir, digər tərəfdən isə müxtəlif infeksiyaların epidemioloji prosesinin xüsusiyyətlərini nəzərə almaqla epidemioloji nəzarətin əsas müddəalarının dəqiqləşdirilməsi və təkmilləşdirilməsinə şərait yaradır.

**Səbinə Əhmədova,**
*Dermatovenerologiya kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru*

# Əməkdaşlarımızın uğurları




Ortodontiya kafedrasının müdiri, professor Ramidə Şadlinskaya, kafedranın əməkdaşları və rezidentləri Bakı şəhərində keçirilən “EVOLVE: Redefining Orthodontic Aesthetics” adlı beynəlxalq təlimdə fəal iştirak ediblər.

Təlim çərçivəsində diş-çənə anomaliyalarının müalicəsinin planlaşdırılması, üz estetikasının qiymətləndirilməsi, eləcə də müasir biomexanikanın praktik tətbiqi kimi aktual mövzular geniş müzakirə olunub.

Tədbirin əsas məruzəçiləri dünyaca tanınmış ortodontlar doktor İlies Tibaoui və doktor Wassim Bouzid olub. Məruzəçilər klinik nümunələr əsasında yumşaq toxuma estetikasının qorunması, funksional və estetik nəticələrin harmoniyasının təmin edilməsi, həmçinin az invaziv müalicə yanaşmaları barədə praktik yönümlü təqdimatlar ediblər.

* * *



Özbəkistanın Xarəzm vilayətində I Qlobal Sağlamlıq və Biotibb Beynəlxalq Konfransı keçirilib. BZT Turan Akademiyası və Ürgənc Dövlət Tibb İnstitutunun təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycan Tibb Universitetinin nümayəndə heyəti ölkəmizi uğurla təmsil edib. Konfransın açılışında Urologiya kafedrasının müdiri, akademik Sudeyf İmamverdiyev türk dünyasında elmi inteqrasiyanın əhəmiyyəti haqda çıxış edib.

Tədbir çərçivəsində Normal fiziologiya kafedrasının müəllimi, biologiya üzrə fəlsəfə doktoru Mehri Seyidbəylinin müəllifi olduğu, bəstəkar Fərahim Sadıq tərəfindən musiqi yazılmış “Şəhid həkimlər” videoçarxı təqdim olunub və böyük ehtiramla qarşılanıb.

Panel iclaslarında Mehri Seyidbəyli, Pərvin Zülfüqarova, Ülviyyə Cəfərova və Aysel Həşimova müasir təbabətin aktual mövzularına dair məruzələrlə çıxış ediblər. Təcili yardım üzrə mütəxəssislər Xatirə Şirinova-Səfərova və Nigar Cəfərova da təcrübələrini bölüşüblər.

Konfransın sonunda azərbaycanlı alimlərə Özbəkistanın ali təhsil müəssisələri tərəfindən Fəxri doktor və Fəxri professor adları təqdim olunub.

* * *

Normal fiziologiya kafedrasının baş müəllimi, tibb üzrə fəlsəfə doktoru Ülviyyə Cəfərova elmi və pedaqoji fəaliyyəti ilə həm də türk dünyasında elm və təhsil əlaqələrinin inkişafına mühüm töhfələr verir.

Beynəlxalq konfranslarda müasir



təbabətin aktual mövzularına dair maraqlı məruzələrlə çıxış edən əməkdaşımızın əməyi yüksək qiymətləndirilir. Belə ki, bu istiqamətdə göstərdiyi səmərəli fəaliyyətə görə, o, Özbəkistanın Mamun Universitetinin Fəxri doktoru, Urgenç Dövlət Tibb İnstitutunun Fəxri professoru adlarına layiq görülüb.

Qeyd edək ki, Ü.Cəfərova 2022-ci ildən Türkiyə Respublikasının BZT – Turan Akademiyası (Turan naminə Birləşmiş Ziyalılar Təşkilatı) çərçivəsində Azərbaycan Respublikasında tibbi təhsil və tibbi qurumlar üzrə baş koordinator vəzifəsini icra edir.

Türk dünyasında elm və təhsilin inkişafına, beynəlxalq akademik əməkdaşlığın gücləndirilməsinə dəyərli töhfələr verən əməkdaşımızı bu yüksək nailiyyətləri münasibətilə təbrik edirik.

* * *



II Uşaq xəstəlikləri kafedrasının əməkdaşı, tibb üzrə fəlsəfə doktoru Səbinə Cəfərova Moskva şəhərində keçirilən Rusiya Pediatrlarının XXVII Konqresində - “Pediatriyanın aktual problemləri” mövzusuna həsr olunmuş elmi tədbir çərçivəsində təşkil edilən V Şərqi Avropa, Asiya və Mərkəzi Asiya Pediatrlarının elmi toplantısında iştirak edib.

S.Cəfərova tədbirdə “Azərbaycanda uşaqlar arasında respirator infeksiyaların klinik-epidemioloji xüsusiyyətləri” mövzusunda məruzə ilə çıxış edərək ölkəmizdə uşaqlar arasında rast gələn respirator infeksiyaların yayılma xüsusiyyətləri, klinik gedişi və epidemioloji göstəriciləri barədə ətraflı məlumat təqdim edib.

Konqres çərçivəsində uşaqların sağlamlığı sahəsində müasir elmi yanaşmalar, qabaqcıl klinik təcrübələr və aktual problemlər geniş müzakirə olunub.

* * *

Bu günlərdə Türkiyədə “Elmi məqalə və nəşrlər: akademiklərin əl kitabı” adlı kitab dərc olunub. Əsərin bir bölümü universitetimizin Ailə təbabəti kafedrasının dosenti, kardioloq Rəhimə Qabulova tərəfindən qələmə alınıb.

Kitabda Türkiyə və Azərbaycan tibbi jurnal redaktorlarının təcrübələri bir araya gətirilib. Belə ki, əsasən həkimlər olmaqla bütün akademik işçilərin elmi məqalə hazırlayarkən, yazarkən və qəbul etdirərkən diqqət etməli olduqları bütün vacib məsələlərə ətraflı şəkildə toxunulur. Əsərin müəllifləri Türkiyənin tanınmış jurnallarının redaktorları və elmi birliklərdə rəhbərlik təcrübəsi olan akademiklərdən ibarətdir. Bununla yanaşı, Azərbaycan, Şimali Kipr Türk Respublikası, Amerika Birləşmiş Ştatları və Şimali Makedoniya redaktorları da layihəyə töhfə verib. 51 bölmədən ibarət olan bu kitab müvafiq sahədə ən geniş nəşr




olmaqla, gənc alimlərdən tutmuş, nəşriyyat karyerasını davam etdirən həmkarlarımıza qədər hər kəs üçün elmi məqalə və nəşrlərlə bağlı rəhbərlik funksiyasını daşıyır. Kitaba ön sözü Nobel mükafatı laureatı professor Əziz Sancar yazıb.

R.Qabulova tərəfindən yazılmış 45-ci bölmə tibb sahəsində elmi məqalələrin hakem rəylərinə cavab verməsi prinsiplərinə həsr olunub. Bölmədə tədqiqatçıların rəyçilərin şərhlərinə necə strukturlaşdırılmış və elmi əsaslı cavab verməli olduqları, həmçinin prosesi effektiv idarə etməyin yolları praktik nümunələrlə izah edilib.

* * *



I Mamalıq və ginekologiya kafedrasının assistenti, Tədris Cərrahiyyə Klinikasının ginekoloqu Aynur Rzayeva İndoneziyanın aparıcı ali təhsil müəssisələrindən olan Universitas Indonesia-da mühazirə oxuyub.

Dünyanın nüfuzlu universitetləri sırasında yer alan və beynəlxalq reytinqdə 189-cu mövqedə qərarlaşan Universitas Indonesia-da keçirilən mühazirə “Hiperprolaktinemiya və menstrual pozulmalar” mövzusuna həsr olunub.

Mühazirədə universitetin Mamalıq və ginekologiya kafedrasının müəllimləri, rezidentləri, həmçinin Sonsuzluq və endokrinologiya şöbəsinin həkimləri iştirak ediblər.

Qeyd edək ki, əməkdaşlarımızın beynəlxalq elmi-tədris mühitində aktiv iştirakı universitetin beynəlxalq əlaqələrinin genişlənməsinə və təcrübə mübadiləsinin güclənməsinə xidmət edir.

# Həzm sistemi infeksiyaları səhiyyənin aktual problemlərindən biridir





Rezidentura və magistratura şöbəsi ilə Tibbi mikrobiologiya və immunologiya kafedrasının birgə təşkilatçılığı əsasında rezidentlər üçün “Həzm sistemi nümunələrində törədicilər” mövzusunda elmi-praktik seminar təşkil olunub.

Tədbirin əsas məqsədi həzm sistemi infeksiyalarının etioloji xüsusiyyətləri, patogen mikroorqanizmlərin identifikasiyası, klinik nümunələrin mikrobioloji tədqiqi prinsipləri, eləcə də müasir laborator diaqnostika metodları sahəsində rezidentlərin nəzəri biliklərinin və praktik bacarıqlarının təkmilləşdirilməsi olub.

Seminarın moderatoru, Tibbi mikrobiologiya və immunologiya kafedrasının baş müəllimi Yavər Hacısoy açılış nitqi ilə çıxış edərək iştirakçıları salamlayıb və məruzə üçün sözü kafedranın həkim-rezidenti Vahidə Şıxıyevaya verib. V.Şıxıyeva geniş məruzə ilə çıxış etdikdən sonra seminar interaktiv müzakirələrlə davam edib.

Tədbirin təşkilatçısı, kafedra müdiri, professor Həqiqət Qədirova həzm sistemi infeksiyalarının müasir səhiyyə sistemində aktual problemlərdən biri olduğunu vurğulayıb. O, infeksion patologiyaların diaqnostikasında mikrobioloji müayinələrin rolundan, patogenlərin erkən aşkarlanmasının klinik nəticələrin yaxşılaşdırılmasına təsirindən bəhs edib. Professor mikrobioloji laborator tədqiqatların klinik praktikada tətbiqinin, etioloji diaqnostikanın düzgün aparılmasının müalicə strategiyasının seçilməsində həlledici rol oynadığını diqqətə çatdırıb.

Kafedra müdirinin müavini, dosent Həyat Əliyeva isə öz çıxışında həzm sistemi nümunələrinin düzgün götürülməsi, daşınması və laboratoriyada işlənməsi prinsipləri, mikrobioloji analiz mərhələləri, bakterioloji və seroloji müayinə üsulları, eləcə də əsas bakterial, viral və parazitar törədicilərin identifikasiyası metodları barədə ətraflı məlumat verib.

Seminar çərçivəsində müasir yanaşmalar, klinik nümunələrin interpretasiyası və praktik halların təhlili üzrə geniş müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

**Müasir stomatologiyada funksional sağlamlıqla yanaşı, dişlərin estetik görünüşü də xüsusi əhəmiyyət daşıyır. Estetik problemlər arasında tetrasiklinə bağlı rəng dəyişiklikləri mühüm yer tutur.**

# Tetrasiklinə bağlı rəng probleminin vinirlə estetik bərpası

Tetrasiklin ləkələnməsi dişlərin inkişaf dövründə tetrasiklin qrupuna aid antibiotiklərin qəbulu nəticəsində yaranan daxili rəng dəyişiklikləridir. Bu preparatlar dentin və mina toxumalarında kalsiumla birləşərək dişlərdə sarı, qəhvəyi və ya boz çalarlı daimi piqmentasiyaya səbəb olur. Estetik baxımdan ciddi narahatlıq yaradan bu rəng dəyişiklikləri müasir stomatologiyada konservativ və protetik üsullarla korreksiya oluna bilər.

Bu yaxınlarda bir pasiyent klinikamıza tetrasiklinə bağlı rəng dəyişikliyi olan dişlərlə bağlı müraciət etmişdi. Onun əsas şikayəti dişlərin rəngi və forması ilə əlaqədar idi. Arxa dişlərdə dərin kariyes ocaqları müşahidə olunurdu və bu vəziyyət qida qəbulu zamanı ciddi narahatlıq yaradırdı. Müalicəyə kariyeslərin bərpası ilə başlanıldı, daha sonra ortopedik mərhələyə keçildi. İlk olaraq pasiyentdən diaqnostik ölçü götürüldü və ilkin klinik fotolar çəkildi. Daha sonra isə texnik tərəfindən Exocad proqramı vasitəsilə gülüş dizaynı hazırlandı və printer vasitəsilə maket çap olundu. Çap edilmiş maket əsasında silikon açar hazırlanaraq dişlər üzərində mock-up proseduru icra edildi. Mock-up üzərində pasiyentin istəyinə uyğun düzəlişlər aparıldıqdan sonra preparasiya olunacaq sahələr müəyyənləşdirildi. Mock-up çıxarıldıqdan sonra planlaşdırılmış nahiyələrdə minimal preparasiya aparıldı. Yonmadan sonra retraksiya sapları yerləşdirildi, ölçü götürüldü və müvəqqəti vinirlər spot etching və spot bonding texnikası ilə sabitləndi. Daimi vinirlər hazır olduqdan sonra ağız daxilində yoxlanıldı və adgeziv sementləmə protokoluna uyğun olaraq sementləndi.

Mock-up üzərindən aparılan preparasiya dişin sərt toxumalarının maksimum dərəcədə qorunmasına imkan verdi. Tetrasiklinə bağlı rənglənməni kamuflyaj etmək məqsədilə press vinirlərin üzəri əlavə keramika qatı ilə işlənildi. Hazırlanan vinirlər ağız daxilində yoxlanıldıqdan sonra adgeziv üsulla sementləndi. Bu klinik keysdə əsas məqsəd mina qatını qorumaqla tetrasiklinə bağlı yaranmış rəng problemini kamuflyaj etmək idi. Bu məqsədlə texnik tərəfindən mum blokdan CAD-BACK texnikası ilə vinirlər hazırlandı, daha sonra həmin mum vinirlər gipsə basdırılaraq pressləmə mərhələsi həyata keçirildi. Son mərhələdə yalnız vestibulyar səthdə əlavə keramika tələb edən vinir formalaşdırıldı və üzərində layering texnikası tətbiq edildi. Nəticədə press texnologiyası sayəsində ortopedik konstruksiya alt qatda olan rənglənməni effektiv şəkildə maskaladı və əlavə keramika qatının tətbiqi ilə daha estetik və təbii görünüş əldə olundu.

**İlham MƏMMƏDLİ**
*Tədris Stomatoloji Klinikanın Ortopedik stomatologiya kafedrasının rezidenti*





# Tanınmış alim və pedaqoq vəfat edib



**I Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb elmləri namizədi, tanınmış alim və pedaqoq Zahirə Sulduz qızı Talışlı vəfat edib.**

1947-ci ildə dünyaya göz açan Z.Talışlı 1970-ci ildə Azərbaycan Tibb İnstitutunun (indiki ATU) Pediatriya fakültəsini bitirib və 1971-ci ildə klinik ordinaturaya daxil olub. Bundan sonra Moskva Tibb Akademiyasının Elmi-Tədqiqat Pediatriya İnstitutuna ezam olunub.

1987-ci ildə namizədlik dissertasiyasını müdafiə edən gənc alim bir neçə müəssisədə rəhbər vəzifələrdə çalışıb. 1989-cu ildən Azərbaycan Tibb Universitetinin Uşaq xəstəlikləri kafedrasında fəaliyyətə başlayan Zahirə xanım 1998-ci ildə dosent vəzifəsinə seçilib.

Kafedrada çalışdığı dövr ərzində 150-ə yaxın elmi əsərin müəllifi, "Uşaq qastroenterologiyası" və "Pediatriyada pəhriz terapiyası" dərs vəsaitlərinin həmmüəllifi olub. Bir çox xarici ölkələrdə keçirilən konfranslarda elmi çıxışları maraqla qarşılanıb.

Yüksək intellektual səviyyəsi, insani keyfiyyətləri, dərin elmi biliyi və pedaqoji bacarığı ilə professor-müəllim heyəti və tələbələri arasında böyük hörmət qazanmış Zahirə xanımın əziz xatirəsi daim qəlblərdə yaşayacaq.

**I Uşaq xəstəlikləri kafedrasının əməkdaşları**

# Kimsəsiz uşaqlar ziyarət olunub

**Fevralın 21-də "Könüllü İnsanlıq Missiyası" İctimai Birliyi "Mehriban Qadın və Uşaq" sığınacağını ziyarət edib. Bu, birliyin uşaqlar evinə həyata keçirdiyi ilk ziyarət olub və tələbələrin sosial məsuliyyət hissinin formalaşması baxımından xüsusi əhəmiyyət daşıyıb.**



Qeyd edək ki, İctimai Birlik bu il yanvarın 3-də Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin 4-cü kurs tələbəsi Nəriman İskəndərov tərəfindən təsis edilib. Təşkilatın əsas məqsədi qocalar və uşaqlar evlərinə ziyarətlər təşkil etmək və ehtiyacı olan şəxslərə dəstək olmaqdır. Hazırda birliyin 200-ə yaxın aktiv üzvü var. Üzvlər arasında ATU-nun professor, müəllim və tələbələri, digər universitetlərin tələbələri, həmçinin məktəb müəllimləri də yer alır.

Ziyarət zamanı tələbələr uşaqlarla müxtəlif oyunlar oynayıb, səmimi söhbətlər ediblər. Bu təşəbbüs yalnız maddi dəstək məqsədli olmayıb, eyni zamanda uşaqlara diqqət göstərmək, onların gündəlik həyatına sevinc qatmaq və tək olmadıqlarını hiss etdirmək məqsədi daşıyıb.

# Tələbələrimiz Türkiyədən qayıdıb

Tələbələrimiz Türkiyə Bursları proqramı çərçivəsində qardaş ölkənin aparıcı universitetlərində təhsil alıblar.

II Müalicə-profilaktika fakültəsinin tələbələri Mehriban Orucova, Şəms Yusifli və Zeynəb Axundzadə 2025-2026 tədris ilinin payız semestrini İstanbul Cərrahpaşa Universitetində keçiriblər.

Əczaçılıq fakültəsinin tələbəsi Emili Qasımova və İctimai səhiyyə fakültəsinin tələbəsi Yusif Əliyev isə Hacettepe Universitetində təhsillərini davam etdiriblər.

Tələbələr bir semestr ərzində dərs prosesində yüksək akademik göstəricilər nümayiş etdirərək təhsillərini uğurla başa vurublar.



## Tələbə dekan

# Eldar Baxşəliyevin fəaliyyəti fərdi uğurlarla məhdudlaşmır

**II Müalicə-profilaktika fakültəsinin 5-ci kurs tələbəsi və tələbə dekanı Eldar Baxşəliyev son illər həm akademik göstəriciləri, həm də fəal ictimai fəaliyyəti ilə universitet mühitində seçilən gənclərdən biridir. Onun fəaliyyəti yalnız fərdi uğurlarla məhdudlaşmır, eyni zamanda universitetin tələbə həyatının inkişafına və I kurs tələbələrinin adaptasiyasına yönəlmiş məqsədyönlü işləri ilə də diqqət çəkir.**



Eldar 6 iyul 2004-cü ildə Masallı rayonunda anadan olub. Orta təhsilini Bakı şəhəri, Xəzər rayonunda yerləşən E.Şəmiyev adına 149 nömrəli tam orta məktəbdə alıb və məktəbi "Xüsusi nümunəli attestat" və qızıl medalla bitirib. Hələ məktəb illərindən olimpiadalar və intellektual yarışlarda qazandığı uğurlar onun elmə erkən marağını göstərib.

2021-ci ildə qəbul imtahanlarında 679.8 bal toplayaraq Azərbaycan Tibb Universitetinə Prezident təqaüdü ilə qəbul olunub.

Universitet illərində Eldar elmi fəaliyyətə xüsusi önəm verib. Süni intellektin tibdə tətbiqi və eksperimental tədqiqatlar sahəsində apardığı araşdırmalar yerli və beynəlxalq konfranslarda yüksək qiymətləndirilib. Xüsusilə Hollandiyanın Groningen Universitetində keçirilən ISCOMS konfransında Azərbaycanı təmsil etməsi onun elmi fəaliyyətinin beynəlxalq səviyyədə tanındığını göstərir.

2024-cü ildə II Müalicə-profilaktika fakültəsinin tələbə dekanı seçilən E.Baxşəliyev bu vəzifəni yalnız formal status kimi qəbul etməyib, onu məsuliyyət və xidmət vəzifəsi kimi görür.

Onun fəaliyyətinin əsas istiqamətlərindən biri I kurs tələbələrinin universitet mühitinə adaptasiyasıdır. Bu məqsədlə Eldar onları tələbə özünüidarəetmə fəaliyyətlərinə cəlb edir, onların maraq dairəsinə uyğun fəaliyyət istiqamətini müəyyənləşdirmələrinə kömək edir.

E.Baxşəliyevin elmi fəaliyyəti də diqqətəlayiqdir. O, Tələbə Elmi Cəmiyyəti ilə sıx əməkdaşlıq edir, tələbələri yerli və beynəlxalq elmi konfranslar, qrant proqramları, fənn olimpiadaları və tələbə mübadiləsi imkanları barədə məlumatlandırır. Onun fikrincə, tələbə elmi fəaliyyətə yalnız son kurslarda deyil, ilk gündən maraq göstərməlidir.

O, həmçinin tələbə yataqxanalarında yaşayan tələbələrin sosial və məişət problemlərinin həllində iştirak edir və fakültənin sosial şəbəkələrdə fəaliyyət göstərən platformalarının idarə olunmasına da nəzarət edir. Bu platformalar vasitəsilə tələbələr elmi konfranslar, idman yarışları, müsabiqələr və digər tədbirlər barədə vaxtında məlumatlandırılır, fakültə məzunları ilə əlaqələr gücləndirilir.

2025-ci ildə təhsildə və ictimai fəaliyyətdəki uğurlarına görə E.Baxşəliyev "Brend tələbə" adına və adlı təqaüdə layiq görülüb. O bu uğuru yalnız şəxsi nailiyyət hesab etmir, həm də tələbələr və cəmiyyət qarşısında məsuliyyət kimi dəyərləndirir.

Dörd dil bilən E.Baxşəliyev gələcəkdə elmi və klinik fəaliyyətini paralel aparmağı hədəfləyir. Onun fikrincə, müasir həkim yalnız peşəkar deyil, həm də sosial məsuliyyət daşıyan vətəndaş olmalıdır.

**Qabil ABDULLAYEV**

# Üzərlik bitkisi ilə bağlı xəbərdarlıq

**Son vaxtlar sosial şəbəkələrdə və kütləvi informasiya vasitələrində üzərlik bitkisinin (xalq arasında "üzərlik", "qarmala" kimi tanınır) istifadəsi, xarici ölkələrə aparılması və buna görə hüquqi məsuliyyətə cəlb olunma halları ilə bağlı müxtəlif məlumatlar yayılmaqdadır.**

Səhiyyə Nazirliyi vətəndaşların sağlamlığının qorunması və maarifləndirilməsi məqsədilə üzərlik bitkisinin tərkibi, onun insan orqanizminə təsiri və bu sahədə mövcud olan risklər barədə aşağıdakıları bildirir.

Üzərlik bitkisinin tərkibində harmin, harmalin, harmalol, tetrahidroharmin kimi alkaloidlər mövcuddur. Bu maddələr elmi ədəbiyyatda "harmala alkaloidləri" və ya "beta-karbolin alkaloidləri" adlanır. Bu qrup alkaloidlər mərkəzi sinir sisteminə təsir göstərən psixoaktiv birləşmələrdir.

Harmin və harmalin monoaminoksidaz inhibitorları (MAOİ) qrupuna aiddir. Bu maddələr beynin müəyyən funksiyalarına təsir edərək sinir impulslarının ötürülməsini dəyişdirir. Onlar orqanizmdə serotonin, dopamin və adrenalin kimi neyrotransmitterlərin parçalanmasını ləngidir, nəticədə bu maddələrin sinir sistemindəki konsentrasiyası artır.

Azərbaycan Respublikasında üzərlik bitkisinin yandırılması (tüstülənməsi) qədim ənənə kimi qəbul olunur və bu konkret formada istifadə ilə bağlı birbaşa qadağa mövcud deyil. Lakin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, tərkibində narkotik və ya psixotrop təsirli maddələr olan bitkilərin kultivasiyası, idxalı, satışı və istifadəsi məhdudlaşdırıla bilər.

Tərkibindəki psixoaktiv alkaloidlərə görə üzərlik bitkisi və onun ekstraktları bir çox ölkələrdə nəzarətə alınan maddələr siyahısına daxil edilib. Rusiya Federasiyası Hökumətinin 7 yanvar 2024-cü il tarixli, 135 nömrəli qərarı ilə üzərlik (qarmala) bitkisi rəsmən "narkotik vasitələr olan bitkilər" siyahısına salınıb. Bu o deməkdir ki, Rusiya ərazisində həmin bitkinin idxalı, daşınması, saxlanması və satışı qanunsuz hesab olunur və cinayət məsuliyyətinə səbəb olur.



Xarici ölkələrə səyahət edərkən üzərlik bitkisini, onun toxumlarını, hissəciklərini və ya törəmələrini üzərinizdə götürməyin. Bəzi ölkələrdə bu bitkinin hətta kiçik miqdarda aşkarlanması ağır hüquqi nəticələrə səbəb ola bilər.

Səhiyyə Nazirliyi vətəndaşlarımızın sağlamlığının qorunması və onların hüquqi risklərdən qorunması məqsədilə maarifləndirmə işlərini davam etdirəcək.

Hər hansı bir bitkinin dərman məqsədli istifadəsindən əvvəl mütləq həkimə müraciət edilməsi tövsiyə olunur.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0004
Sayı 800